***"Ermənistan özü təxribatlara əl atır, atəşkəsi pozur, ardınca isə dərhal Rusiya, Fransa və digər ölkələrin rəhbərlərinə çağırış edib, atəşin dayandırılması üçün yalvarır". Ermənistanın sərhəddə törətdiyi təxribatlarla bağlı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev bu açıqlamasının davamında bildirdi:***

# Ermənistanın hərbi təxribatları onun gücsüzlüyünü göstərir

– Sentyabrın 12-də gecə satlarından başlayartaq Ermənistan silahlı dəstələri sərhəddə növbətiirimiqyaslı təxribat törədərək mövqelərimizi ələ keçirməyə cəhd etsə də, onların atəş nöqtələri ordumuz tərəfindən məhv edilib. Ermənistan hərbçiləri Daşkəsən, Laçın, Kəlbəcər istiqamətində yüksəkliklərimizdə olan mövqelərimizi atəşə tutub. Eyni zamanda mövqelər arasında olan əraziləri minalayaraq, postlarımıza tərəf iriçaplı silahlardan, minaatanlardan atəş açıb. Bundan sonra Azərbaycan Ordusu adekvat cavab verməklə, düşmənin təxribat törətdiyi nöqtələri məhv edib, bir sıra yüksəklikləri ələ keçirib. Təəssüf ki, itkilərin, yaralıların olması istisna deyil. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bu bədnam və faciəli təxribatı başladan Ermənistan rəhbərliyi Rusiya prezidenti Vladimir Putinə və digər ölkə rəhbərlərinə zəng edərək, atəşin dayandırılması üçün çağırışlar edib. Maraqlısı budur ki, atəşkəsi pozan, təxribatlara cəhd edən də özləridir, müxtəlif dövlət rəhbərlərinə yalvarışlar edərək, dayandırılmasını istəyənlər də. Sual olunur ki, düşmən ölkənin sülh danışıqları apara-apara son təxribatları törətməkdə məqsədi nədir?

Əvvəla, Ermənistanın sərhəddə təxribat törətməsində məqsəd delimitasiya, demarkasiya prosesləri üçün yaradılan komissiyanın işini pozmaqdır. Ermənilər nəyin bahasına olursa, olsun "status-kvo"nu saxlamaq istəyirlər. Bundan əlavə, onlar həm də



Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlərini və müxtəlif ölkələri proseslərə cəlb etmək, artıq öz missiyasını başa vurmuş, ölü qüvvəyə çevrilmiş ATƏT-in Minsk qrupunu yenidən diriltmək niyyətindədirlər.

Bu, ermənilərin xislətidir. Sülhdən yayınmaq üçün bütün vasitələrə əl atırlar. Həm daxili, həm də xarici proseslərdən irəli gələn addımlara məcburdurlar. Ermənistanın daxilində Nikol Paşinyanla hesablaşma yoxdur, "Qarabağ klanı" dirçəlməyə başlayır, hadisələrdə Paşinyanı günahlandırırlar. Bütün hallarda Azərbaycan Ordusu öz gücünü göstərdi və göstərməkdə davam edir. Ermənistanın hərbi təxribatları onun gücsüzlüyünü bir daha aşkara çıxardı.

***Hazırladı: T.AYDINOĞLU, "Xalq qəzeti"***